**"Maarifpərvərlik" Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası (MAGİYA) ictimai birliyi**

**"Education" Public Support Association of Youth of Azerbaijan (EPSAYA) public union**

**Azərbaycan Respublikası, Lənkəran şəhəri, AZ 4200, Heydər Əliyev prospekti 3,**
**İnternet səhifəsi: www.epsaya.az, E-mail: info@epsaya.az, Telefon: (0 51) 814 44 42**

# PRES-RELİZ – 2016

MAGİYA ictimai birliyi 2016-cı il ərzində müxtəlif hökümət, qeyri-hökümət və beynəlxalq təşkilatlar ilə sıx əməkdaşlıq çərçivəsində aşağıdakı layihələri (tədbirləri) uğurla həyata keçirmişdir:

1. MAGİYA ictimai birliyi 25-27 iyun 2016-cı il tarixlərində Lənkəran şəhərində yerləşən AB Qala otelində Azərbaycanın 18 yaşayış məntəqəsindən (Abşeron, Ağdam, Bakı, Füzuli, Gəncə, Goranboy, Xanlar, Laçın, Lerik, Lənkəran, Neftçala, Oğuz, Salyan, Sumqayıt, Şirvan, Şuşa, Ucar, Yardımlı) olan 26 nəfər gənc üçün Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə (7000 AZN) **"İnsan alverinə qarşı effektiv mübarizə gənclərin maariflənməsindən keçir"** mövzusunda 3 günlük təlim kursları təşkil etmişdir. Təlim kurslarında 13 nəfər oğlan və 13 nəfər qız iştirak etmişdir. Qeyd edək ki, təlim kurslarından öncə Azərbaycanın 33 müxtəlif yaşayış məntəqəsindən (Abşeron, Ağcabədi, Ağdam, Ağdaş, Ağstafa, Bakı, Beyləqan, Bərdə, Biləsuvar, Daşkəsən, Füzuli, Gəncə, Goranboy, Göyçay, Xanlar, Qazax, Qəbələ, Laçın, Lerik, Lənkəran, Mingəçevir, Naxçıvan, Neftçala, Oğuz, Salyan, Samux, Sumqayıt, Şəki, Şirvan, Şuşa, Tovuz, Ucar, Yardımlı) 83 gənc ərizəçi (42 oğlan və 41 qız) təlim kurslarında iştirak etmək üçün təşkilata müraciət etmişdir. Təşkilatın heyətindən başqa təlim kurslarında qonaq qismində Lənkəran Şəhər İcra Hakimiyyəti başçısı aparatının Hüquq şöbəsinin məsləhətçisi cənab Cavidan Hüseynov və Lənkəran şəhər Gənclər və İdman İdarəsinin rəisi cənab Yalçın Əhmədov, ekspert qismində Ombudsman Aparatının Cəlilabad Regional Mərkəzinin rəhbəri cənab Ziya İsmayılov, təlimçi qismində isə "Lənkəran Hüquq Mərkəzi" MMC-nin direktoru cənab Ehtiram Fəttayev iştirak edərək özlərinin şəxsi bilik və təcrübələrini gənclərlə bölüşmüş və iştirakçı gənclərin suallarını cavablandırmışlar. Təlim kurslarında heyətlə iştirakçılar arasında insan alveri və qanunsuz miqrasiya sahəsində bir çox mövzular – ***"İnsan alveri haqqında məlumat: insan qaçaqmalçılığı – qlobal və yerli insan alveri tendensiyalarının hüquqi aspektdə və rəsmi məlumatlar əsasında təhlili; İnsan alverinin başvermə səbəbləri və insan alverinə cəlbetmə yolları – mənşə, tranzit və təyinat ölkəsi, readmissiya və repatriasiya məsələləri; Kimlər insan alverinin qurbanları sayılır: potensial insan alveri qurbanları kimlərdir – risk qrupları; İnsan alveri qurbanlarının ehtiyacları və problemləri; İnsan alveri qurbanları ilə davranış/ünsiyyət qaydaları: qurbanlarla müsahibələr – əsas məsələlər; İnsan alveri qurbanlarının reabilitasiyası – əsas prinsiplər, insan alveri qurbanlarına qarşı stereotiplərin aradan qaldırılması, qurbanların inteqrasiya və reinteqrasiya məsələləri; İnsan alveri qurbanlarının müdafiəsi istiqamətində beynəlxalq və milli qanunvericilik, proqramlar və qurbanların sığınacaqlarda yerləşdirilməsi mexanizmləri; İnsan alveri ilə mübarizə yolları: Aidiyyəti qurumlar, QHT-lər və KİV-lər arasında əməkdaşlıq; Azərbaycan Respublikasında insan alveri qurbanlarına göstərilən xidmətlər; İnsan alveri və məcburi əmək anlayışları, insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlər; Miqrant kimdir: qanuni və qeyri-qanuni miqrant, əməkçi miqrant və potensial qurbanlar – vətəndaşlığı olmayan şəxslər; Miqrasiya nədir: emiqrasiya və immiqrasiya prosesləri – viza və deportasiya anlayışları; Miqrasiya proseslərinin idarə edilməsi və tənzimlənməsində Azərbaycan Respublikasının qanunvericiliyi; Əcnəbilərin ölkəyə giriş və qeydiyyat qaydaları, miqrasiya qanunvericiliyinin pozulması hallarında nəzərdə tutulan prosedurlar və cərimələr"*** müzakirə olunmuşdur. Təlimin keçirilməsi zamanı heyət interaktiv qrup

müzakirələri, debatlar, simulyasiyalar, təqdimatlar, fokus qrup müzakirələri, rol oyunları və enercayzerlər kimi bir çox təlim metodlarından geniş istifadə etmiş, eləcə də, bütün sessiya ərzində mövzularla bağlı müxtəlif sosial çarxlar izlənilmişdir. Təşkilatçılar həmçinin iştirakçılarla layihə ilə bağlı gələcək fəaliyyətləri, xüsusilə də, layihə çərçivəsində həyata keçirilən tədbirlərin nailiyyətləri, nəticə və yekunu barədə 09 iyul 2016-cı il tarixində Lənkəranda mətbuat konfransının təşkilini də müzakirə etmişlər. Təlim kursunun sonunda bütün iştirakçılara sertifikatlar və insan alveri və qanunsuz miqrasiya sahəsində müvafiq bukletlər təqdim edilmişdir. Sonda iştirakçılar və təşkilatçılar, eləcə də qonaqlar və ekspertlər layihə ilə bağlı öz fikirlərini bildirmiş və donora – Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasına gənclər üçün belə bir aktual layihənin reallaşdırılmasını təmin etdiyi üçün minnətdarlıq etmişlər.




2. 09 iyul 2016-cı il tarixində MAGİYA ictimai birliyi Lənkəran şəhərindəki ofisində Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə (7000 AZN) həyata keçirilən **"İnsan alverinə qarşı effektiv mübarizə gənclərin maariflənməsindən keçir"** layihəsinin bitməsi ilə əlaqədar mətbuat konfransı təşkil etmişdir. Tədbirdə 15 nəfərə yaxın KİV, hökumət, QHT və Gənclər təşkilatlarının nümayəndələri iştirak etmişdir. Tədbirdə həmçinin donorun nümayəndəsi cənab Qalib Yaqubov da iştirak etmişdir. Tədbir zamanı təşkilatın nümayəndələri iştirakçılara mövcud layihənin uğurları və davamlı nəticələri barədə qısa məlumatlar vermişlər. Layihənin məqsədi insan alveri və qanunsuz miqrasiya sahəsində gənclərin maarifləndirilməsi və məlumatlandırılmasından ibarət olmuşdur. Tədbir zamanı bəzi iştirakçılar cari layihə barədə müvafiq suallar vermiş və tədbirin sonunda qeyd etmişlər ki, gələcəkdə də, ölkə gəncləri üçün bu cür maraqlı və faydalı layihələrin həyata keçirilməsi çox yaxşı olardı. Sonda Azərbaycan Respublikasının gənclərinin bilik və bacarıqlarının gücləndirilməsinin yüksəldilməsi istiqamətində göstərdiyi diqqət və dəstəyə görə hamı layihənin donoruna minnətdarlıq etdi.





3. MAGİYA ictimai birliyi 15-17 iyul 2016-cı il tarixlərində Lənkəran şəhərində yerləşən AB Qala otelində Azərbaycanın 16 yaşayış məntəqəsindən (Abşeron, Bakı, Daşkəsən, Füzuli, Gədəbəy, Gəncə, Xaçmaz, Qazax, Lənkəran, Naxçıvan, Neftçala, Sabirabad, Sumqayıt, Şabran, Yardımlı, Yevlax) olan 26 nəfər gənc üçün Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə (6700 AZN) **"Erkən nikahlar valideyn məsuliyyətsizliyinin və ictimai qınaqsızlığın nəticəsidir"** mövzusunda 3 günlük təlim kursları təşkil etmişdir. Təlim kurslarında 13 nəfər oğlan və 13 nəfər qız iştirak etmişdir. Qeyd edək ki, təlim kurslarından öncə Azərbaycanın 25 müxtəlif yaşayış məntəqəsindən (Abşeron, Ağdam, Bakı, Bərdə, Cəlilabad, Daşkəsən, Füzuli, Gədəbəy, Gəncə, Goranboy, Göyçay, Xaçmaz, İsmayıllı, Qazax, Lerik, Lənkəran, Naxçıvan, Neftçala, Sabirabad, Salyan, Sumqayıt, Şabran, Şəki, Yardımlı, Yevlax) 83 nəfər gənc ərizəçi (36 oğlan və 47 qız) təlim kurslarında iştirak etmək üçün təşkilata müraciət etmişdir. Təşkilatın heyətindən başqa təlim kurslarında qonaq qismində Lənkəran Şəhər İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin Baş məsləhətçiləri cənab Asif İmanlı və cənab Cavad Miriyev, Lənkəran şəhər Gənclər və İdman İdarəsinin rəisi cənab Yalçın Əhmədov, ekspert qismində isə "Lənkəran Hüquq Mərkəzi" MMC-nin direktoru cənab Ehtiram Fəttayev iştirak edərək özlərinin şəxsi bilik və təcrübələrini gənclərlə bölüşmüş və iştirakçı gənclərin suallarını cavablandırmışlar. Təlim kurslarında heyətlə iştirakçılar arasında erkən nikahlar və onun fəsadları sahəsində bir çox mövzular – ***"Erkən nikahlar haqqında ümumi məlumat: BMT-nin Əhali Fondundan və Dövlət Statistika Komitəsindən verilən rəsmi məlumatların təhlili; Erkən nikahların başvermə səbəbləri və erkən nikaha daxil olmanın sosial fəsadları; Qızların erkən nikaha daxil olması və rəsmi nikahdan kənar doğulan uşaqların əsas hüquqi problemləri; Erkən nikahdan doğulan uşaqların təhsildən yayınması halları – təhsil hüququnun pozulması; Nikahdan kənar doğulan uşaqların əsas sosial problemləri – uşaq əməyinin istismarı; Azərbaycanda qızlar və oğlanlar üçün nikah yaşı: Ailə və Cinayət məcəlləsinin təfsiri; Yetkinlik yaşına çatmayan qız uşağlarının zorla ərə verilməsi, o cümlədən qadını nikaha daxil olmağa məcbur etməyə görə məsuliyyət; İnsan alveri kontekstində qızların qaçırılması halları və buna görə məsuliyyət; Erkən nikahların pozulması hallarında atalıq faktının və ananın yaşayış hüququnun tanınması, birgə nikah dövründə əldə edilən əmlakın və mülkiyyətin bölüşdürülməsi məsələləri və aliment öhdəlikləri üzrə məhkəmə çəkişmələri; Erkən nikahların rəvac verdiyi məişət zorakılğı problemi və ailədaxili zorakılığa qarşı məsuliyyət; Cəmiyyətdə erkən nikahların, körpə və ana ölümü hallarının və boşanmaların qarşısının alınması yolları; Qızların təhsilə cəlb edilməsi, azyaşlıların nikahına yol verilməməsi və reproduktiv sağlamlıqla bağlı maarıfləndirmə yolları; Adət və ənənələrin əsas tərkib hissələrindən biri hesab edilən erkən nikahlara qarşı gənc qızlarda məişət və sosial həyatda seçim etmək mədəniyyətinin formalaşdırılması – stereotiplərin aradan qaldırılması; Erkən nikahlarla mübarizə yolları: cəmiyyətdə valideyn məsuliyyətinin və ictimai qınağın artırılması istiqamətində Aidiyyəti qurumlar, QHT-lər və KİV-lər arasında əməkdaşlığın inkişaf etdirilməsi"*** müzakirə olunmuşdur. Təlimin keçirilməsi zamanı heyət interaktiv qrup müzakirələri, debatlar, simulyasiyalar, təqdimatlar, fokus qrup müzakirələri, rol oyunları və enercayzerlər kimi bir çox təlim metodlarından geniş istifadə etmiş, eləcə də, bütün sessiya ərzində mövzularla bağlı müxtəlif sosial çarxlar izlənilmişdir. Təşkilatçılar həmçinin iştirakçılarla layihə ilə bağlı gələcək fəaliyyətləri, xüsusilə də, layihə çərçivəsində həyata keçirilən tədbirlərin nailiyyətləri, nəticə və yekunu barədə 06 avqust 2016-cı il tarixində Lənkəranda mətbuat konfransının təşkilini də müzakirə etmişlər. Təlim kursunun sonunda bütün iştirakçılara sertifikatlar, erkən nikahlar və onun fəsadları barədə müvafiq təqdimatlar təqdim edilmişdir. Sonda iştirakçılar və təşkilatçılar, eləcə də qonaqlar və ekspertlər layihə ilə bağlı öz fikirlərini bildirmiş və donora – Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fonduna gənclər üçün belə bir aktual layihənin reallaşdırılmasını təmin etdiyi üçün minnətdarlıq etmişlər.

 

4. 06 avqust 2016-cı il tarixində MAGİYA ictimai birliyi Lənkəran şəhərindəki ofisində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə (6700 AZN) həyata keçirilən **"Erkən nikahlar valideyn məsuliyyətsizliyinin və ictimai qınaqsızlığın nəticəsidir"** layihəsinin bitməsi ilə əlaqədar mətbuat konfransı təşkil etmişdir. Tədbirdə 18 nəfərə yaxın KİV, hökumət, QHT və Gənclər təşkilatlarının nümayəndələri iştirak etmişdir. Tədbir zamanı təşkilatın nümayəndələri iştirakçılara mövcud layihənin uğurları və davamlı nəticələri barədə qısa məlumatlar vermişlər. Layihənin məqsədi erkən nikahlar və onun fəsadları sahəsində gənclərin maarifləndirilməsi və məlumatlandırılmasından ibarət olmuşdur. Tədbir zamanı bəzi iştirakçılar cari layihə barədə müvafiq suallar vermiş və tədbirin sonunda qeyd etmişlər ki, gələcəkdə də, ölkə gəncləri üçün bu cür maraqlı və faydalı layihələrin həyata keçirilməsi çox yaxşı olardı. Sonda Azərbaycan Respublikasının gənclərinin bilik və bacarıqlarının gücləndirilməsinin yüksəldilməsi istiqamətində göstərdiyi diqqət və dəstəyə görə hamı layihənin donoruna minnətdarlıq etdi.

 

5. MAGİYA ictimai birliyi 06-08 yanvar 2017-ci il tarixlərində Lənkəran şəhərində yerləşən AB Qala otelində Azərbaycanın 16 yaşayış məntəqəsindən (Bakı, Bərdə, Daşkəsən, Füzuli, Gəncə, Xaçmaz, İsmayıllı, Qazax, Qəbələ, Laçın, Lənkəran, Masallı, Naxçıvan, Neftçala, Sumqayıt, Zərdab) olan 26 nəfər gənc üçün Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə (6500 AZN) **"Gənclər üçün turizm bələdçiliyi üzrə qış məktəbi"** mövzusunda 3 günlük təlim kursları təşkil etmişdir. Təlim kurslarında 12 nəfər oğlan və 14 nəfər qız iştirak etmişdir. Qeyd edək ki, təlim kurslarından öncə Azərbaycanın 25 müxtəlif yaşayış məntəqəsindən (Abşeron, Ağdaş, Bakı, Bərdə, Cəlilabad, Daşkəsən, Füzuli, Gəncə, Xaçmaz, İsmayıllı, Qazax, Qəbələ, Laçın, Lerik, Lənkəran, Masallı, Naxçıvan, Neftçala, Oğuz, Siyəzən, Sumqayıt, Şabran, Şamaxı, Yardımlı, Zərdab) 79 nəfər gənc ərizəçi (34 oğlan və 45 qız) təlim kurslarında iştirak etmək üçün təşkilata müraciət

etmişdir. Təşkilatın heyətindən başqa təlim kurslarında qonaq qismində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun nümayəndəsi cənab Nural Səfəralı, Lənkəran Turizm və İnformasiya Mərkəzinin direktoru cənab İlqar Əzimov, Lənkəran şəhər Gənclər və İdman İdarəsinin rəis müavini cənab Elbəy Fətəliyev, təlimçi qismində "Cənub Turizm" MMC-nin direktoru cənab Vamiq Babayev, ekspert qismində isə "İntellekt" Sərhədsiz Maarifçi Gənclər ictimai birliyinin sədri cənab Samir Axundov iştirak edərək özlərinin şəxsi bilik və təcrübələrini gənclərlə bölüşmüş və iştirakçı gənclərin suallarını cavablandırmışlar. Təlim kurslarında heyətlə iştirakçılar arasında turizm və turizm bələdçiliyi sahəsində bir çox mövzular – ***"Turizm nədir? Kimlər turist hesab olunur? Turizm – Azərbaycanda neft sektorundan sonra ən perspektivli sahələrdən biri kimi, Azərbaycanın turizm sənayesi ilə bağlı mövcud statistika – turizmin inkişafında dövlət siyasəti, Azərbaycanın turizm sahəsi üzrə tanıdılmasında Turizm İnformasiya Mərkəzlərinin yeri və rolu, Azərbaycanda turizm infrastrukturunun vəziyyəti – mövcud turizm zonaları, Azərbaycanda turizm biznesinin artım tempi – regionaların sosial-iqtisadi inkişafında turizmin rolu, Ölkəyə gələn turistlərlə ölkədən gedən turistlər arasındakı saldo, Azərbaycanın turizm potensialı: büdcə gəlirlərinin böyük hissəsinin turizmdən əldə olunan vəsaitlər hesabına formalaşan ölkələr (Türkiyə təcrübəsi), Azərbaycanda turizmin inkişafı – turizm sahəsində investisiyaların cəlb olunması, Azərbaycan üçün turizm sahəsi üzrə prioritet ölkələr (ABŞ təcrübəsi), Azərbaycanda turizm sahəsində mövcud olan problemlər: bahalı və qeyri-peşəkar xidmətlər, Azərbaycanda turizm sahəsində mövcud olan perspektivlər: tariflərin optimallaşdırılması, çarter aviareyslərin açılması və əlavə investisiyaların yatırılması, Turizmin dünya miqyasında inkişaf tempi: turizmin müasir problemləri və inkişaf perspektivləri (Almaniya təcrübəsi), Ümumdünya Turizm Təşkilatının proqnozları və Dünya İqtisadi Forumunun (DİF) rəqabətlilik reytinqində Azərbaycanın yeri, Turizm bələdçiliyi sahəsində peşəkar bələdçi-ekskursiya rəhbərlərinin – gənc turgidlərin hazırlanması mexanizmləri"*** müzakirə olunmuşdur. Təlimin keçirilməsi zamanı heyət interaktiv qrup müzakirələri, debatlar, simulyasiyalar, təqdimatlar, fokus qrup müzakirələri, rol oyunları və enercayzerlər kimi bir çox təlim metodlarından geniş istifadə etmiş, eləcə də, bütün sessiya ərzində mövzularla bağlı müxtəlif sosial çarxlar izlənilmişdir. Təşkilatçılar həmçinin iştirakçılarla layihə ilə bağlı gələcək fəaliyyətləri, xüsusilə də, layihə çərçivəsində həyata keçirilən tədbirlərin nailiyyətləri, nəticə və yekunu barədə 11 fevral 2017-ci il tarixində Lənkəranda mətbuat konfransının təşkilini də müzakirə etmişlər. Təlim kursunun sonunda bütün iştirakçılara sertifikatlar, turizm və turizm bələdçiliyi barədə müvafiq təqdimatlar təqdim edilmişdir. Sonda iştirakçılar və təşkilatçılar, eləcə də qonaqlar və ekspertlər layihə ilə bağlı öz fikirlərini bildirmiş və donora – Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fonduna gənclər üçün belə bir aktual layihənin reallaşdırılmasını təmin etdiyi üçün minnətdarlıq etmişlər.





6. 11 fevral 2017-ci il tarixində MAGİYA ictimai birliyi Lənkəran şəhərindəki ofisində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə (6500 AZN) həyata keçirilən **"Gənclər üçün turizm bələdçiliyi üzrə qış məktəbi"** layihəsinin bitməsi ilə əlaqədar

mətbuat konfransı təşkil etmişdir. Tədbirdə 20 nəfərə yaxın KİV, hökumət, QHT və Gənclər təşkilatlarının nümayəndələri iştirak etmişdir. Tədbir zamanı təşkilatın nümayəndələri iştirakçılara mövcud layihənin uğurları və davamlı nəticələri barədə qısa məlumatlar vermişlər. Layihənin məqsədi turizm və turizm bələdçiliyi sahəsində gənclərin maarifləndirilməsi və məlumatlandırılmasından ibarət olmuşdur. Tədbir zamanı bəzi iştirakçılar cari layihə barədə müvafiq suallar vermiş və tədbirin sonunda qeyd etmişlər ki, gələcəkdə də, ölkə gəncləri üçün bu cür maraqlı və faydalı layihələrin həyata keçirilməsi çox yaxşı olardı. Sonda hamı Azərbaycan Respublikasının gənclərinin bilik və bacarıqlarının gücləndirilməsinin yüksəldilməsi istiqamətində göstərdiyi diqqət və dəstəyə görə layihənin donoruna minnətdarlıq etdi.





*MAGİYA ictimai birliyinin Mətbuat Katibliyi*

*30 dekabr, 2016-cı il*